# ÖZÜNÜ DƏRKDƏN ÖZÜNÜ TƏRKƏ

*Dünyada müxtəlif xalqlar yaşayır. Xalqlar müxtəlif olduğu kimi, bu xalqların bilik kitabları da müxtəlifdir. Məsələn, müsəlman dünyasının müqəddəs bilik kitabı "Quran", Hindistanın bilik kitabı "Veda", Qərbin bilik kitabı isə "Əhdi-ətiq" və "Əhdi-cədid"dir. Bu kitablar müqəddəs bilik kitablarıdır və bizə-bütün insanlara bir şeyi başa salmaq üçündür; "Biz bədən deyilik"!*

*İstər-istəməz insan düşünür; "Biz bədən deyilik"sə, bəs onda biz nəyik? Və beləliklə, bu suallara cavab axtara-axtara insan "özünü dərkə" qədəm qoyur, təsəvvüflə-sufiliklə tanışlığı başlayır.*

*İnsan dünyada müvəqqətidir və bu müvəqqəti dünyada ölümdən əvvəl, yəni "özünü tərk"dən əvvəl, "özünü dərk" etməlidir. Doğuluşdan ölüməqədərki vaxt ərzində insan özünü tanımalı, içindəki "məni" duymalı, kamilləşməlidir. Ruhsuz bədən ölüdür. Bəs elə isə ruh nədir?*

Bədəndə can-yəni ruh, canda şüur var. Yəni bədəndə ruh varmı, yoxmu sualına şüurun inkaredilməz fakt olması ilə cavab vermək olar. Bədən müəyyən işlər görür və ona bu işləri görmək üçün güc verən ruhdur. Şüur "can"ın enerjisi, can isə bədənin hərəkətverici gücüdür. "Can"ımızda daşıdığımız şüuru inkar etmək olmaz. Çünki insan şüursuz heç nə edə bilməz. "İçimizədki canı" günəş işığının molekullarına bənzətmək olar. "Can" bədəni tərk edən kimi bədən çürüyür. "Can" nə doğulur, nə də ölür, o əbədidir (7, s. 402).

İçimizdəki ruh bizə Allahın əmanətidir. Deyir Allah ruhu dağlara-daşlara verdi, dağlar götürmədi, insana verdi, insan götürdü. Deməli, insan içində ruh yaşadır və bu ruh "Allahın əmanəti"dir, insanın içində candır. Bu ruh, yəni "Allahın əmanəti", bədəni tərk edəndə Allaha qovuşacaqdır. "Quran"ın 8-ci surəsinin 161-ci ayəsində deyildiyi kimi; "Həqiqətən, biz onun (Allahın) tərəfinə qayıdacağıq" ("İnna ileyhür-raciun").

Bu baxımdan "Veda" ədəbiyyatının gəldiyi nəticələr də çox maraqlı və ibrətvericidir. "Bütün əksikliklərdən, əldə etmək və qorumaq cəhdlərindən qurtul, öz ruhi mahiyyətində bərqərar ol!" (7, s. 10).

İnsanın fiziki bədəni ölümə məhkumdur, ruhu isə ölməzdir. Can bədəni tərk edəndə gəldiyi yerə qayıdacaqdır. İçində "can" daşıyan insan özünü dərk etmək istər ki, bu da, yəni "özünü dərk", məhz ruhi dünya ilə əlaqədən keçir. Allahı dərk etmək, Allaha çatmaq eşqi ilə yaşamaq kamilliyə qovuşmaqdır. Adlarını çəkdiyim bütün kitabların məqsədi də budur; Allahın yanına qayıtmağa kömək etmək. Yəni "özünü dərkə" kömək etmək, çünki Allahın yanına "özünüdərk" vasitəsi ilə qayıda bilərsən. Qurani-Kərimdə deyilir: "İstədiyin kimsəni öz nuruna qovuşdurar Allah" ("Nur" surəsi 35-ci ayə). Din bilmək yox, duymaq üçündür. Din bilikdən çox iman üçündür. Duyan insanın qəlbi isə Allahdan gələn vergi kimi verilən nurla işıqlanmış olur.

Yalnız dini kitablar deyil, Allah eşqinə bürünərək həqiqəti dərk etməyə çalışan insanlarda-sufilərdə, bu eşqlə yaradan mütəfəkkir şairlər və filosoflarda hər zaman insanları özünüdərkə, kamilliyə çağırış çox güclü olmuşdur. Onların çağırışlarındakı həqiqətləri görməmək mümkün deyil. Panteist ideyasını ifadə edən "ənəlhəqq" ("həqq mənəm") kəlməsinin banisi Hüseyn əl- Həllac sufu fikirlərinə görə 922-ci ildə Bağdadda edam edilmişdir.( Həllac Mənsur edam olunsa da, onun "ənəlhəqq" ideyası "sufilərin fəlsəfi dini ədəbiyyatı və sufi poeziyası vasitəsi ilə" inkişaf etmişdi. Bu poeziyada müsəlman mistiklərin idealları alleqorik ifadələrlə tərənnüm edilirdi. Məsələn, "Ruhumuz eşq ilə yanır, bu eşq Allah eşqidir", "Məni məndə demə, məndə deyiləm, bir mən vardır məndə məndən içəri" (5, s. 17) deyən Yunusun üzü haqqa sarıdır. O, bir aşiqdir və bu aşiqliyə haqdan gələn şərbəti içərək çatmışdır. Yunusun içində islam imanı var, onun ruhu Allaha eşqiylə çırpınır; "Hayana baxıram sən orda varsan, necə qoyum səni məndən içəri" (5, s. 120). Yunus içində Allahın nuru olan ruhu-canı gəzdirdiyini dərk edir. Dərk etdiyi üçündür ki, onun şerlərindən ilahi sevgi süzülür. Yunus Əmrə mənaya qiymət verir, mənanı qiymətləndirir, "varlıq" (vəhdəti-vücud) biliyinə bütün ruhi canı ilə inanır və bu ilahi eşqi böyük bir sevgi ilə tərənnüm edir. Yunus Əmrə sufi şairdir, aşiqdir "sufilik ənənəsi içində yetişmiş, bişmiş bir şəxsiyyətdir" (6, s. 10-11). Onun şerlərindən "laməkanın işığı süzülür, çünki o, "laməkan"ın nuruna bürünərək "laməkan",-Allahı vəsf edirdi. Təriqətlərə, müxtəlif əqidələrə bölünmüş insanlari həqiqətə çağırırdı:

***Şəriət, təriqət yoxdur gedənə,***
***Həqiqət, mərifət ondan içəri*** (6, s. 116).

Yunus bütün ruhu ilə aşiqi olduğu yaradanına qovuşmaq arzusunda idi və buna inanırdı; "Yunusa haqq açdı qapı, Yunus haqqa qaldı tapu" (6, s. 8) söyləyəndə inanırdı ki, haqqın qapısı açıqdır və onun tapusu Allahdadır. İnanırdı ki, fani bədəndən sonra ruhu haqqa qovuşacaq. O, insanları da özünüdərkə çağırırdı; "Ucadan baxan göz deyil". O, tanrı ucalığından özgə ucalıq görmürdü. Bu yalnız Yunusda belə deyildi. "Mənəm həqq" dediyinə görə dərisi diri-diri soyulan, fəlsəfi lirikanın banisi Nəsiminin lirikasının da canını insanın kamilləşməsi problemi təşkil edirdi. Çünki Nəsimi də kamilləşmə yolu ilə Allahı dərk etmək, Allaha qayıtmaq olar fikrində idi. İnsanların Allaha olan inamı, Allahla ruhən birliyi, canlı harmoniyasıdır. Təsəvvüfə görə vəhdətə-yaradana qovuşmaq, onunla birləşməkdir. Baxmayaraq ki, Nəsimi bir dinsiz kimi, din xadimləri tərəfindən ən ağır cəzaya məruz qalmışdır, lakin Nəsimi öz fəlsəfi şerlərində hər zaman Allahın birliyini və onun əzəli olmasını böyük bir

eşqlə vəsf etmişdir. Mənə elə gəlir ki, Allahı dərk etmək üçün Nəsimi poeziyasının dini kitabımız qədər əhəmiyyəti var. Məncə, Nəsimi Allahı dərk etmişdi,-desəm yanılmaram. O inanırdı ki, "O, hər şeyin əzəli və axırıdır. Hər şey bir nöqtədən çıxır və oraya qayıdacaq. Allah ruhun hakimidir. Nəsimi görüşlərində ilahi başlanğıc lirik şerlərin idrak predmeti kimi təzahür edir və bu problemin ağırlıq mərkəzini" "özünü dərk" və "özünü tərk" müstəvisi üzərində keçirdi. Sən özünü dərk elə ki, haqq sirrini də dərk edəsən" ( 1, s. 11). Yunus Əmrədə olduğu kimi "özünü dərk" Nəsimidə də əbədiləşir. Sitat gətirdiyimiz beytləri təhlil edərkən görürük ki, əslində təsəvvüf görüşləri islama yad deyil, əksinə onun daxildən-batindən zənginləşməsinə, tamamlanmasına kömək edir. Bu baxımdan aşağıdakı beytlərə Nəsiminin fəlsəfi görüşlərinin təzahürü kimi baxmaq lazımdır.

***Batinim öylə bürünmüş ki, "ənəllah" nuruna,***
***Könlümü mütləq odur Musa odunda yandıran.***
(2, s. 60)

***Sirri mütləq eşqidir, həqqi həqiqət eşqdir,***
***Varlığı yoxdur onun kim, eşqidən düşmüş kənar.***

"Ənəllah" və onun nuru "ənəlhəqq" "Mütləq"in - Allahın sirri, qüdrəti eşqdir, həqqin həqiqəti, Allahın həqiqəti eşqdir. Sufi görüşlərinə görə eşqdən kənar olanın varlığı ola bilməz. Təsəvvüf mənasında varlıq vəhdəti, vücudi-mütləqi, ona qovuşmağı, ondan qopub yenidən ona qayıtmağı nəzərdə tutur.

***Ey bülbülü-qüdsi, nə giriftari qəfəssən,***
***Sındır qəfəsi, tazə gülüstan tələb eylə*** (1, s. 49).

İlk dəfə idi ki, könülə-ruha bu cür müraciət olunurdu; "Ey bülbülü qüdsi" nədən qəfəsdə qalmısan.

Və ya

***Qandadır deyü nə sərkərdan gəzərsən zənn ilən***
***Gəzməgil, hər məzili çün can məkan səndədir*** (1, s. 185)
***Ey talıb, əgər deyilsən əma,***
***Gör vədəyi külli min əleyha*** (1, s. 285)

2Canın məkanı!səndədir". Canın məCanın çÖx gəzmə məkan0səndədir. Ey həqiqət, əgər Cor deyHlsənsə "varlıq"da hə[illegible]ey keçicidir, yalnız Allbh qalır", yalGız Allah əbədydir.

Nösimi rufi panteist herlərində ali bir eşqi tərənnüm edir, "varlığın bir vücudun vəhdətindən" yarandığını söyləyir, yüksək eşqə-kamala çatacağına inanırdı. Nəsimi haqqı özündə-insanda görürdü. Bu da onun hürufi baxışından irəli gəlirdi. Sufilər Allaha çatmağın yolunu eşqdə, hürufilər əqldə, kamillikdə görürdü. Nəsimidə sufizmlə hürufilik birləşir. Sufi kimi haqqı görməyin mümkünlüyünə inanırdı, hürufi kimi isə bunu yalnız kamil insanın görəcəyinə inanırdı. Nəsimi "mən bu cahana sığmazam" deyəndə insanın ağlının, idrakının bu dünyaya sığmayacağını söyləyirdi, cism və bədən demirdi. İnsan mənən dünyaya sığmır və Allahlıq səviyyəsinə yüksəlir. Bütün canlılardan fərqli olaraq insan xəyalı kainatı, ayı, günəşi gəzib dolaşır və öz yaradıcısı ilə vəhdət yaradır. Cismən yerdə yaşayan insan fikir və xəyalının sabit yeri yoxdur, daha doğrusu, o məkansızdır, yersizdir, öz dünyasından çox-çox uzaqlarda qanad çalır, Allah kimi hər yerdə mövcuddur. Şair insan Allahdır deyəndə bunu nəzərdə tuturdu" (1, s. 9).

Bu fikrə, yəni insanın xəyalının dolaşması fikrinə aşıq ədəbiyyatında da, xalq arasında da tez-tez rast gəlmək olur. "Ruh quşdur, uça bilir", "Baxma özüm burdayam, ruhum burada deyil" və s. İnsan bu dünyanı tərk edəndə də bəzən deyirik, "sanki heç yoxmuş, bir quş idi, uçdu". Həqiqətən də, ruh quş kimidir, bədəndən asılı deyil, istədiyi zaman və istədiyi yerdə qanad çalır.

Bütün bunlar, yəni idrak anlayışı, insanın özünü dərki Nəsimi yaradıcılığının ruhunu-canını təşkil edir. Nəsimi bütün kainata sual dolu nəzərlərlə baxırdı və bu sualların cavabını axtarırdı.Nəsimini düşündürən suallar bütün "orta yüzillikləri, bütün varlığı düşündürən suallar idi".

Ümumiyyətlə, "fərd ideyası ilə kamil cəmiyyət yaratmaq ideyası, xüsusən islam şərqində sənətkar və filosofların bütöv bir kəhkəşanını (əl-Fərabi, İbn-Sina, F.Əttar, M.Şəbüstəri, Sührəvərdi, C.Rumi, Nəsimi, Füzuli, Xətai, Nəbati) fəlsəfənin, xüsusən, qədim və orta əsrlərin bütün tarixi boyu məşğul etmişdir. İnsan-təbiət-kainat miqyası bəşəri qayğılarla, "Cahan keyfiyyəti" (Füzuli) ilə ən çox irfan məşqul olmuşdur" (10)

Varlıq-"kövnü-məkan" ilahi eşqin təzahürüdür. Hegel "Dinin fəlsəfəsi" əsərində Allahı "ruhu bilən ruh" hesab edirsə, Nəsimi Allaha "ruhun ruhu" deyərək, insanın mənəvi kamilliyi uğurunda mübarizə aparırdı və bu yolda dərisi soyuldu. Kamilləşmə problemi bütün klassiklərimizdə, o cümlədən, Füzulidə, Xətaidə, Nəbatidə də əsas problem kimi qarşıya qoyulub.

Füzuli kainatın mənasını eşqdə görürdü, o eşqdə ki, onu kamilləşməyə aparırdı, o kamilliyə ki, onu "mütləq"ə-"haqq"a qovuşdururdu. "Sirrini sirdaşa verməyən dünyan"ın sirrlərindən baş açmaq elə də asan deyil. "Hər aşikarda bir müəmma", "hər aşıkarda bir möcüzə var". Ariflər bu aşikardakı sirri-müəmmaya hərəsi bir aspektdən yanaşaraq, aydınlatmağa çalışıblar. Məsələn, Şah İsmayıl Xətai kainatı ilahi, mütləq varlıqla bir sayda, yaradıcı ilə yaradanı eyniləşdirərək özünü "mütləq həqiqət" ("həqqi-mütləq") adlandırararaq vəsf edirdi;

***Ənəlhəq sirri uş könlümdə gizli,***
***Ki həqqi mütləqəm, həqq söylərəm mən***

Xətai "ənəlhəq" deməsi ilə öyünürdü, bunu ən yüksək mərifət, məziyyət sayırdı və inanırdı ki, "ənəlhəqq" deyən qəm görməz.

***Mən Xətai çəkmişəm ğəm, çünki ənəlhəq demişəm,***
***Çəkmişəm Heydər təki meydanda hu mərdanə mən***
(3, s. 149).

"Həq mənəm, həq məndədir" söyləyən Nəsimi kimi, Xətai də görünən hər şeydə, həmçinin insanın simasında ilahi varlığı görürdü, insanları da bu ilahi varlığı görməyə çağırırdı. Düzdür, bəzən Xətai də fəlsəfi fikirlərinə mistik don geyindirirdi, bəzən isə bu həqiqətləri çılpaq-heç bir mistik dona bürümədən ifadə edirdi. Belə ki, o, "Nəsihətnamə" əsərində "vəhdəti-vücud" fəlsəfəsinin müddəaları ilə çıxış edərək "həqqi mütləq"i bir dəryaya, dünyanı isə onun bir damlasına bənzədirdi. "Dərya ilə damla eynidir" fikrini, yəni bizlər "ruhun ruhuyuq" fikrini irəli sürürdü. Xətainin fikrincə mövcud dünya Allahın, yaxud bütöv varlığın güzgüyə düşmüş əksidir. Görən də, görünən də bir şeydir. Biri vəhdət, birlik, bütövlük aləmi, o birisi isə kəsrət, yəni bütövün zərrələrindən ibarət olan çoxluq aləmidir. "Günəş zərrəvü həm zərrə günəşdir" deyən şair Allahla mövcüd aləmi eyniləşdirir. "Zərrə bütövə ancaq eşqlə qovuşa bilər".

Şerlərində Nəsimi, Füzuli, Hafiz, Saib Təbrizi ruhu duyulan sufi şair Nəbati, Nəsiminin "Məndə sığar iki cahan , mən bu cahana sığmazam" fikrini "Sənin cəmalın mənim timsalımda cilvələndiyi üçün heyrət edirəm ki, mən bu dünyaya necə sığmaram" şəkilində ifadə edir. Nəbatinin yaradıcılığı sırf sufi təriqətinin fikirlərini əks etdirir. O, bu təriqətin tərənnümçüsü idi.

***"Əntə minni" dedi, Səlmanə nəbi eyb olmaz,***
***Məndə "Allahı məək" gün kimi peyda görünür***
( 4, s. 148 ).

Peyğəmbər öz əsabələrindən olan Salmana "əntə minni", yəni sən bizdənsən,- demişdi. Nəbati bu beytdə bunu belə ifadə edir ki, peyğəmbər Səlmana "sən bizlərdənsən" dedi, "mən söyləsəm ki, Allah məndə təzahür edir, heç də eyib deyil". Bununla da Nəbati "vəhdəti-vücud"dakı "insan özü Allahdır" ideyasına açıq-aşkar işarə edir. Burada hətta Məhəmməd peyğəmbərin Səlmana müraciətində belə sufizmin izləri görünür, bu da onu göstərir ki, təsəvvüf islamdan da öncə yaranıb. Çünki təsəvvüf fikirləri insan dünyaya gələndən onu çuğlayır. "Mən kiməm?" "Mən haradan gəlmişəm?" "Mən haraya gedəcəyəm?"

Əslində həqiqi böyük iman sahibləri, ömrü boyu haqqa qovuşmağa can atan, "ənəlhəqq" zirvəsinə yüksələn şəxslər üçün cismani ölüm elə də böyük faciə deyil. Sağlığında tərki dünya olanlar dünyanı tərk etməklə heç nə itirmirlər. İtirən yerdə qalanlardır ki, onların nəfslərinin işıqlanması naminə yazıla biləcək yeni-yeni əsərlərdən məhrum olurlar. Haqqa qovuşanlar ölüm şərbətini bir mey kimi başına çəkirlər. C.Rumi peyğəmbərə deyir: "Ölməzdən əvvəl ölmək lazımdır" (9). Təsəvvüf nümayəndələri də, məhz dünyanın yaranması, aləmin, kainatın sirlərinə vaqif olmaq üçün fəlsəfi axtarışlar aparmışlar. Onlar göydən gələn ehkamı kor- koranə qəbul etməmiş, əksinə, xilqətin yaranması barədə elmi axtarışlar aparmışlar. Məsələn, Şeyx Mahmud Şəbüstəri "Gülşəni-raz" əsərində çox maraqlı bir məsələyə toxunmuşdur.

Hələlik kəşf edilməyən o hansı aləmdir ki,
Oranın bir günü buranın bir ili qədərdir?

Şəbüstərinin bu beytində hansı kürədən söhbət gedir bilirik, amma onu bilmirik ki, "klassiklərimiz, sufi və hürufi şairlərimiz belə mürəkkəb məsələlər haqqında maraqlı fikirlər söyləmişlər. Aydındır ki, "çəkisizlik və sürətlə əlaqədar günlər ya uzun olur, ya insan orada yaşaya bilərsə, yerdəkinə görə daha çox yaşaya bilər. O da məlumdur ki, hər planetin gecə-gündüzü və ili onun günəşə uzaq-yaxınlığından, günəş ətrafında, həm də öz dövrəsinə fırlanmasının sürətindən və bir də hərəkət şəraitindən asılıdır. Əgər yer kürəsi bizim hesabla 24 saat ərzində bir dəfə öz ətrafında dönür və gecə-gündüz hasil olursa, yəqin ki, ay və başqa göy cismlərinin hərəkəti bundan fərqli olacaqdır" (4, s. 22).

Bütün bunlardan sonra insanda belə bir fikir yaranır ki, istər insanlar, istər maddi təbiət "Uca Tanrının hissəcikləridir. Və bu hissəciklər mütləq qopub gəldikləri yerə qayıdacaqlar.Tanrıya qayıdan isə insanın ruhu olacaq, bədəni deyil. O elə bir yüksəklikdir ki, o mərtəbəyə qalxanlar bir də maddi dünyaya qayıtmır. Can bədəndən çıxdıqdan sonra da fəaliyyətdə olur, onun bu dövrə aid biliyi ən məxfi bilikdir (7, s. 402).

Bunun üçün də içimizdə bir ruh daşıdığımızı, bu ruhun nə vaxtsa qopub gəldiyi yerə qayıdacağını dərk etdikdən sonra bədənimizi deyil, ruhumuzu düşünməli, hər zaman ruhi canımızın qayıdacağı yüksəkliyə çatmaq eşqi ilə yaşamalıyıq. Axı biz bu dünyada müvəqqətiyik, gəldiyimiz yerə dönəcəyik, yəni biz bədən deyilik, bədənimizdə Allahın nuru, əmanəti olan ruh-can daşıyırıq.

**Lütviyyə ƏSGƏRZADƏ,**
**filologiya elmləri namizədi**

**Ədəbiyyat**

1. Nəsimi.Əsərləri. Bakı.Maarif.1985. 438 s
2. Nəsimi. Fars divanı. Bakı. 1972
3. Xətai. Keçmə namərd körpüsündən. Bakı. Yazıçı. 1988. 342 s
4. Nəbati. Əsərləri. Bakı. Azərnəşr. 1968. 331 s
5. Yunis Əmrə. Aşıq Veysəl. İki zirvə. Bakı. Yazıçı. 1982. 121 s
6. Yunis Əmrə. Güldəstə.Bakı.Yazıçı. 1992.228 s
7. Onun ilahi mərhəməti. Bakı.1991. 44 s
8. İslam məlumat kitabı. B. Azərnəşr. 1985. 162 s
9. Yeni Azərbaycan qəzeti. 14.02.2004 № 095. S.Xəlilov "Öldürülmüş filosofun işıq dünyası"
10. Azərbaycan qəzeti. 16 fevral 2002 № 39. 3051. Y.Qarayev. "Milli mən şüuru və etnik yaddaş-Azərbaycançılıq"

**Резюме**

**САМОПОЗИАНИЕ И СМЕРТЬ**

В статье широко исследовано самопознание, внутренний мир человека его мироощущение и чувствительность в контакте с природой. Здесть сопоставлен разно видность направления суффизма и хуруфизма, исследованы произведения разных поэтов Востока в XII-XVI веках. Все элементы этих идей всесторнно анализированы автором.

В результате автор уточнил того, что дух который существует бессмертны и все направлении в литературе тесно связны с этими идеями.

**Summary**

**FROM PERCEIVE OF ONESELF TO PERCEIVE OF ONESELF**

In this article indicated in relation with nature of people "perceive of oneself". At the same time inner world of people. perceive and sensitivity. There compare different people from mystic and hurufystic trends. At the same author researched XII and XIV centuries next-door neighbors East poets' various works. All of factors and ideas all-round investigate by author. As a result author come to a conclusion "Soul forever "and all of trends with the idea.